Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**

# Şəki 2016

## TÜRK DÜNYASININ MƏDƏNİYYƏT PAYTAXTI

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Şəki Türk dünyasının mədəniyyət paytaxtı

**Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış tövsiyə biblioqrafiyası**

**Bakı-2016**

**Tərtibçi:** **Nazilə Tahirova**
*Əməkdar mədəniyyət işçisi*

**Ixtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Şəki Türk dünyasının mədəniyyət paytaxtı**: tövsiyə biblioqrafiyası /tərt. ed. N. Tahirova; ix. red. və bur. məs. Ş. Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 34 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016.**

# Tərtibçidən

26 noyabr 2015-ci il tarixində Tütkmənistanın Marı şəhərində TÜRKSOY mədəniyyət nazirləri daimi şurasının növbəti 33-cü toplantısında çıxış edən Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev təşkilat tərəfindən həyata keçirilən "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsinin əhəmiyyətini vurğulayaraq qədim tarixə malik, mədəni mərkəzlərdən olan Şəki şəhərinin 2016-cı il üçün türk dünyasının mədəniyyət paytaxtı elan olunması ilə bağlı Azərbaycan tərəfindən təklifinin nəzərdən keçirilməsini xahiş etmişdir. Təklif üzv dövlətlər tərəfindən yekdilliklə müsbət qiymətləndirilmiş və Şəki "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunmuşdur.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi Şəki "Türk dünyasının mədəniyyət paytaxtı" adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar Azərbaycan və rus dillərində öz əksini tapmışdır.Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

Nəşrlə bağlı rəy və təkliflərinizi F.B.Köçərli adına Respublika Uşaq kitabxanasına göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan: Bakı şəh. S.Vurğun küç.88.**

**E-mail: childlibbaku @yahoo.com**

# Şəki şəhərinin tarixi hissəsinin qorunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın çoxəsrlik zəngin keçmişə malik şəhərlərindən Şəkinin qədim hissəsini əhatə edən "Yuxarı Baş" Dövlət tarix-memarlıq qoruğu ərazisində hazırda çox sayda məscid və minarələr, karvansaray və sənətkarlıq emalatxanaları, muzeylər və tarixi əhəmiyyətli digər tikililər vardır. Onlarla sənətkarlıq sahəsinin toplu halında mövcud olduğu şəhərdə tarixi-mədəni irs bu gün layiqincə yaşadılır. Sosial-iqtisadi irəliləyişin geniş vüsət alması regionun turizm potensialını daha da artırmış, eyni zamanda yeni üslublu tikililərin şəhərin simasını dəyişməsi və onun özünəməxsus memarlığını korlaması səbəbindən qoruq ərazisində aparılan işlərə xüsusi həssaslıqla yanaşılması zərurəti meydana çıxmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu mad dəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyəti üçün mühüm əhəmiyyətli Şəki şəhərinin tarixi görünüşünü və memarlıq üslubunu qoruyub saxlamaq, onu gələcək nəsillərə çatdırmaq, eləcə də Azərbaycan xalqının mədəni nailiy yətlərinin geniş miqyasda təbliğini təmin etmək məqsədi ilə qərara alıram:

1.Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Şəki Şəhər İcra Hakimiyyəti ilə birlikdə:

1.1."Yuxarı Baş" Dövlət tarix-memarlıq qoruğunun küçə şəbəkələrini və plan konfiqurasiyasını pozan, memarlıq dəyərinə və üslubuna xələl gətirən tikililərin uyğunlaşdırılması, mühəndis kommunikasiya xətlərinin təmiri və ya yenidən qurulması, tarix və mədəniyyət abidələrinin bərpası və ya konservasiyası, yolların təmiri ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.2.“Yuxarı Baş” Dövlət tarix-memarlıq qoruğu üçün inzibati binanın ayrılmasına və ya həmin binanın tikintisi üçün tələb olunan maliyyə vəsaitinə dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2.Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Şəki Şəhər İcra Hakimiyyəti ilə birlikdə Şəki şəhərinin təbii landşaftının qorunması və yaşıllaşdırılmasına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1.Şəki şəhərinin tarixi hissəsinin inkişafı və qorunub saxlanılması ilə bağlı tədbirlər planını üç ay müddətində təsdiq etsin;

3.2.“Yuxarı Baş” Dövlət tarix-memarlıq qoruğunun xəritəsini bir ay müddətində təsdiq etsin;

3.3.“Yuxarı Baş” Dövlət tarix-memarlıq qoruğuna milli qoruq statusunun verilməsini təmin etsin;

3.4.“Yuxarı Baş” Dövlət tarix-memarlıq qoruğunun maliyyələşməsinin dövlət büdcəsinin yerli xərclərindən dövlət büdcəsində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi üzrə mərkəzləşdirilmiş xərclərə keçməsini təmin etsin;

3.5.“Yuxarı Baş” Dövlət tarix-memarlıq qoruğunun maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

3.6.Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 19 yanvar 2016-cı il.**

***

2012-ci ildə Şəki şəhəri TÜRKSOY tərəfindən ”Türk dünyasının qeyri- maddi mədəni irs Paytaxtı” seçilib,

2012-ci il “Mirzə Fətəli Axundzadə ili” elan edilib.

2014-cü ildə qurumun təşkilatçılığı ilə Şəkidə rəssamların sərgisi və türkdilli ölkələrin milli geyimlərindən ibarət dəfilə təşkil edilib.

2014-cü il noyabrın 26-da Azərbaycan kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin keçirilən iclasında - Kəlağayı simvolizmi və ənənəvi sənəti‖ adı ilə UNESCO-nun - Bəşəriyyətin qeyri - maddi mədəni irs üzrə reprezentativ siyahısı‖na daxil edilmişdir.

Şəki təkcə tarixinin zənginliyinə, görkəmli ziyalılar- elm, incəsənət, ədəbiyyat xadimləri yetişdirdiyinə görə deyil, həm də bütün dövrlərdə ölkənin ictimai-siyasi həyatında özünəməxsus mövqeyi olduğuna görə bizim üçün əzizdir.

***

Şəki rayonunda yaxşı mühit var, insanlar müstəqil dövlətdə yaşamaq imkanlarını çox yüksək qiymətləndirirlər. Bu gün Azərbaycanda yaratdığımız ictimai - siyasi sabitliyi qiymətlən dirə bilirlər.

**Heydər Əliyev**
*Ümummilli lider*

Şəkidə olarkən görürəm ki, burada quruculuq, abadlıq işləri çox yaxşı gedir. Binalar təmir olunur, yeniləri tikilir. Azərbaycan memarlığının ən gözəl nümunələrindən biri olan Xan sarayı təmir edilibdir... Şəki çox gözəl şəhərdir, qədim şəhərdir. Əlbəttə, biz çalışmalıyıq ki, bu şəhəri həmişə belə abad vəziyyətdə saxlayaq.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Şəkili qızın danışığından bir kəlmə söz dovğaya düşsə, dovğa şipşinin olar.

**Bəxtiyar Vahabzadə**
*Xalq şairi*

Mələklər yaşayır dağlar qoynunda,
Cənnət mələklərin qoynunda olur.

**Fikrət Qoca**
*Xalq şairi*

Əgər Azərbaycana, dünyaya bir tikili, bina göstərin desəydilər, Şəki Xan sarayını göstərmək kifayət edərdi.

**Nazim Hikmət**
*Böyük türk şairi*

Orada cürbəcür xalılar, silahlar, yəhərlər, patronlar, üstündə yazı olan şəkillər, balınclar, süfrələr, papaqlar, çərkəzi çuxalar, dağlı səndəllərindən tutmuş gürcü uzunboğaz tumaş çəkmələrinə qədər hər cür başmaqlar düzəldir və satırlar. Orada növbənöv üzüklər, qolbağlar, bir, iki və üç sıra qızıl azərbaycanlı pulu düzülmüş boyunbağılar, bizim qaraçı artistlərinin həsəd apara biləcəkləri və hətta Şamaxı rəqqasəsi, gözəl Nisəyə paltar tikməyə bəs edə bilən baş örtükləri, sırğalar, yaxasında qızıl və gümüşdən meyvə şəkilləri toxunmuş koftalar düzəldilir və satılır. Belə koftalar burada çox dəbdədir. Bütün bunlar göz qamaşdırır, işıq saçır, adama "gəl-gəl" deyir. Səs- küydən qulaq tutulur. Dalaşan kim, qılınc vuran kim, qışqıran, qorxudan, döyüşən kim, bir- birinə uzaqdan salaməleyk deyən, əlini sinəsində çarpazlayaraq salamlaşan, qucaqlaşan kim, sövdələşən, mübahisə edən, höcətləşən, and içən kim və s.

**Aleksandr Düma**
*Tanınmış fransız yazıçısı*

# Giriş

Azərbaycanın mədəni zənginliyinin dünyada daha da geniş şəkildə tanıdılması, bu tarixi mirasın qorunaraq gələcək nəsillərə çatdırılması dövlət başçısı İlham Əliyevin daim diqqət mərkəzindədir. Azərbaycan Prezidentinin 2012- ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasiyasında bu sahəyə xüsusi yer ayrılır. Ölkə rəhbərinin 2013-cü il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilən "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014- 2020-ci illər üzrə Dövlət Proqramı" da məhz mədəni irsə qayğının göstəricisidir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə xalq sənətkarlığının inkişaf etdirilməsi, muğam sahəsində yeni istedadların üzə çıxarılması, folklor yaradıcılığının təbliğı və mədəni irsin müxtəlif sahələrində həyata keçirilən layihələr çox geniş məkanda rezonans doğurmaqdadır.

26 noyabr Azərbaycan kəlağayısı Günü bütün dünyada beynəlxalq səviyyədə qeyd olunur. 2014-cü il noyabrın 26-da Azərbaycan kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin keçirilən iclasında - Kəlağayı simvolizmi və ənənəvi sənəti‖ adı ilə UNESCO-nun - Bəşəriyyətin qeyri - maddi mədəni irs üzrə reprezentativ siyahısı‖na daxil edilmişdir. Kəlağayı faylını birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın dəstəyi ilə Mədəniyyət və Turizm Nazirliyi hazırayıb. Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi və ölkəmizin UNESCO yanında Daimi Nümayən dəliyi, UNESCO üzrə Milli Komissiyanın birgə həyata

keçirdiyi çoxşaxəli fəaliyyət nəticəsində Komitə kəlağayı sənətinin Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğunu beynəlxalq səviyyədə təsdiq etmiş olub. Hazırda Kəlağayıdan başqa Muğam ifaçılıq sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılıq sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer alır.



“Mədəniyyət paytaxtları” proqramının davamlı şəkildə həyata keçirilməsi nəticəsində heç bir qədim rayon və şəhər diqqətdən kənarda qalmır. Dövlətimizin mədəniyyət siyasətinin inkişafına təkan verən “Mədəniyyət paytaxtları” layihəsi maraqla izlənilir. Xalqın tarixini, folklorunu, mətbəx mədəniyyətini təşviq edən bu cür layihələrin həyata keçirilməsi ilk növbədə, milli- mənəvi sərvətlərin daha da geniş auditoriya

və məkanlarda təbliği deməkdir. Bu isə dövlət siyasətinin prioritetlərindəndir. TÜRKSOY mədəniyyət nazirləri Daimi Şurasının ötən ay Türkmənistanın Marı şəhərində keçirilən 33-cü toplantısında Şəki şəhəri 2016-cı il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan olunub.

Dekabrın 21-də bu münasibətlə TÜRKSOY-un baş katibi Düsen Kaseinovun iştirakı ilə Şəki şəhərindəki “Şəki Palas” hotelində mətbuat konfransı keçirilib. Tədbirdə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, Mədəniyyət və Turizm Nazirliyinin Regionlarla iş sektorunun müdiri Pərviz İsgəndərli, Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı, ictimaiyyət nümayəndələri iştirak ediblər.



Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov tədbiri açaraq Şəkinin “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsinin heç də təsadüfi olmadığını bildirib. Vurğulanıb ki, nadir tarixi-memarlıq abidələri, zəngin sənətkarlıq irsi ilə tanınan Şəki bu gün həm də Azərbaycanda ən inkişaf etmiş bölgələrdən biridir. Əsrlər boyu bu qədim və gözəl şəhər

Böyük İpək Yolu üzərində mühüm sənət və ticarət mərkəzi olub. Hazırda Şəki orta əsr şəhərlərinə məxsus olan şəhərsalma mədəniyyətini özündə qoruyub saxlayan bənzərsiz məkandır. Son illər burada keçirilən beynəlxalq festivallar, tədbirlər xalqımıza xas olan zəngin tarixi-mədəni irsi təbliğ etməyə, bölgənin turizm imkanlarını genişləndirməyə imkan yaradır.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun təşkilatın ümumdünya mədəni irs siyahısına daxil edilməsi istiqamətində məqsədyönlü iş aparılır.

Aprelin 28-də Şəki şəhərində "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində, XIII əsrə aid "Qala divarları"nın içərisində "Türk dünyasının mədəniyyət paytaxtı-Şəki 2016" ilinin təntənəli açılış mərasimi olub.



Mərasimdə BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi Düsen Kaseinov, Azərbaycan Respublikasının Mədəniyyət və turizm naziri Əbülfəz Qarayev, Qazaxıstanın tanınmış yazıçısı Oljas Süleymanov, beynəlxalq təşkilatlardan, türkdilli ölkələrdən gəlmiş nümayəndə heyətləri, həmçinin Milli Məclisin deputatları, Azərbaycanda fəaliyyət göstərən səfirliklərin təmsilçiləri, görkəmli elm və incəsənət xadimləri və digər qonaqlar iştirak ediblər.

## Tarixi

Azərbaycanın şimal-qərb zonasına, Şəki-Zaqatala iqtisadi rayonuna aid olan Şəkinin ərazisi 2,43 kvadrat kilometr, əhalisi 168 min nəfərə yaxındır. Bir şəhər, iki qəsəbə və 68 kənddən ibarət olan qədim Şəkinin sənayesinin əsasını ipəkçilik, yeyinti məhsulları, toxuculuq, tikinti materialları, kənd təsərrüfatını isə taxılçılıq, üzümçülük, tütünçülük, heyvandarlıq, meyvə və giləmeyvə istehsalı təşkil edir. Ölkəmizin şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamacında, dəniz səviyyəsindən 632 metr yüksəklikdə yerləşən Şəkinin ərazisindən 3 əsas çay keçir: Kiş, Şin, Daşağıl çayları. Bol su ehtiyatı, normal rütubət balansı, məhsuldar torpaqları, zəngin meşə örtüyü var. Füsunkar təbiəti, nadir tarix-memarlıq abidələri ilə Şəki Azərbaycanın mühüm turizm regionu sayılır.

Şəki ərazisində çoxsaylı tarix memarlıq abidələri mövcuddur. Buranı haqlı olaraq respublikanın memarlıq qoruğu adlandırırlar. Coxsaylı arxeoloji abidələr Şəkinin çoxəsrlik tarixə malik olduğunu sübut edir. Şəkinin adı

eramızdan əvvəl VII əsrdə Azərbaycana gəlmiş “sak”, “şaka” tayfalarının adı ilə əlaqələndirilir. Azərbaycan dilinin qanunauyğunluqlarına müvafiq olaraq “Şaka” adı tədricən “Şəkə”, “Şaki” “Şəki” formasını almışdır. 1772-ci ildə Kiş çayı daşaraq şəhəri tam dağıtmış və şəhər dağlıq hissəyə, Nuxa kəndinin yaxınlığına köçürülmüşdür. Ona görə də şəhər uzun müddət Nuxa adlandırılmışdır.Yalnız 1968-ci ildə şəhərin qədim adı bərpa edilmişdir. Şəkinin tarixinin 2500 - 2600 il olduğu güman edilir. Şəhər Çələbi xanlarının sülaləsi dövründə Şəki xanlığının mərkəzi olmuşdur. Şəkinin keşməkeşli tarixini rayon ərazisindəki çoxsaylı müdafiə qurğularının qalıqları sübut edir. Dövrümüzə gəlib çatmış qalalardan Aydınbulaq qalası, Həzrət Əli qalası, Gələrsən - Görərsən qalası, Şəki şəhərinin özündəki qala dil açsa, çox şeylər danışa bilər. Qalanın yaxınlığındakı Yuxarıbaş məhəlləsi orijinal şəhərsalma nümunəsi kimi Xan sarayı ilə birgə YUNESKO tərəfindən dünyanın nadir abidələr siyahısına daxil edilmişdir.

Şəkinin ən qiymətli möcüzəsi Şəki xanlarının sarayıdır. Həmin saray 1761- 62-ci illərdə memar Hacı Zeynalabdin Şirazi tərəfindən Şəki xanlığının bünövrəsini qoymuş Hacı Çələbi xanın nəvəsi Hüseyn xanın sifarişi ilə tikilmişdir. Saray xalq memarlığı ilə saray arxitekturası ənənələrini birləşdirən nadir nümunədir. Hüseyn xan Müşviq təxəllüsü ilə gözəl şeirlər yazırmış. Saray ikimərtəbəli olmaqla 6 otaqdan, 4 dəhlizdən və 2 güzgülü eyvandan ibarətdir. Binanın baş fasadı dünyada analoqu olmayan ən xırda, həndəsi fiqurlara bölünmüş, ağac parçalarının arasına müxtəlif rəngli şüşələr geydirilmiş şəbəkə və qapılardan ibarətdir. Saray divarının ornamentliliyi, piştağlar, naxışlı şəbəkələr, dağlamalar, müxtəlif naxışlar, gəc üzərində oymalar adamı valeh edir. Binanın daxilində nəbati

rəsmlərə, süjetli və quş rəsmlərinə, döyüş səhnələrinə daha geniş yer verilmişdir.

Şəkinin bənzərsiz təbiəti, abidələrlə birgə buraya Azərbaycanın hər yerindən və xarici ölkələrdən turistləri cəlb edir. Şəki şəhərinin özündə yeni “Saray” oteli, Yuxarı Karvan





saray mehmanxanası, şəhərin lap yaxınlığında Kiş çayı boyunca isə “Marxal”, “Məkan”, “Ümid”, “Cənnət bağı”, “Gələrsən - Görərsən” istirahət zonaları qərar tutur. Burada qonaqların dincəlməsi və gözəl vaxt keçirməsi üçün hər bir şərait vardır.

Belə deyirlər ki, şəkililərin mehribanlığı və şən əhvalı onların şirniyyatı çox sevməsi ilə bağlıdır. Şəkiyə gələnlər qırmabadam, zilviyyə, qoz və düyü unundan hazırlanmış paxlava, nabat, adamın ağzında əriyən pəşvəng halvası və başqa məşhur Şəki şirniyyatı növlərinə heyran qalırlar. Şəki mətbəxi yalnız Şəki pitisi ilə deyil, özünəməxsus Şəki resepti ilə bişirilən digər milli xörəklərimiz ilə fərqlənir.

Şəki sənətkarları şəbəkə işləri, dulusçuluq nümunələri, metal və ağac suvenirlər, ipək parçalar və xalçalarla məşhurdurlar. Şəkidən söz düşəndə bu şəhərin daha bir əlamətdar cəhəti- Şəki yumoru barədə danışmasan olmur. Şəhərdə hər il “Gülüş günü” keçirilir. Şəkidə xalq sənətkarlığını inkişaf etdirmək məqsədi

ilə Yuxarı karvansaray binasında 25 otaq ayrılmışdır. Dünya Bankının dəstəyi ilə həyata keçirilən “Mədəni irsin Qorunması” layihəsi əsasında Şəki qalasının ərazisində yerləşən keçmiş kazarma binası əsaslı təmir olunmuş, burada 18 emalatxanadan və sərgi salonundan ibarət Sənətkarlıq Mərkəzi yaradılmışdır.



Azərbaycan mədəniyyətinin bir sıra görkəmli nümayəndələri Şəkidə yaşayıb-yaratmışlar. Azərbaycan dramaturgiyasının banısı Mirzə Fətəli Axundov, şair Mirzə Şəfi Vazeh, Rəşid bəy Əfəndiyev, ədəbiyyatşünas Salman Mümtaz, şair Bəxtiyat Vahabzadə, dramaturq Sabit Rəhman, məşhur müğənni Ələsgər Abdullayev, bəstəkar Emin Sabitoğlu, heykəltaraş Fuad Əbdürrəhmanov, aktyor İsmayıl Osmanlı, Lütvəli Adullayev, kinorejissor Rasim Ocaqov, bəstəkar Şəfiqə xanım Axundova dünyaya Şəkidə göz açmışlar. Azərbaycan Demokratik Respublikasının banilərindən olan məşhur dövlət xadimi Fətəli xan Xoyski də şəkilidir.

Öz əsrarəngiz gözəlliyi və qədimliyi ilə nə qədər diqqət çəkən olsa da, "Şəki" sözünü eşidən kimi, ilk öncə göz önünə onun mehriban, gülərüz, qonaqpərvər insanları gəlir. Bu insanlar ilk ünsiyyətdəcə həmsöhbətlərinin qəlbində yer almağı bacarırlar. Şəkidə və şəkililər arasında insan heç vaxt darıxmır, özünü yad kimi hiss etmir. Bu keyfiyyət də bir çox dəyərlər kimi, ulu Yaradanın şəkililərə bəxşişidir. Məhz bunun nəticəsidir ki, Şəkinin elə bir günü yoxdur ki, qonaq-qarasız olsun. Qonaqlar da yaxın-uzaq ellərdən gəlir, daha doğrusu, dünyanın hər yerindən bura üz tutanlar olur. Təsadüfi deyildir ki, bir çox beynəlxalq tədbirlər üçün də məkan kimi Şəki seçilir. Sözsüz ki, qonaqpərvərlikdən, ürək genişliyindən əlavə, Şəkinin son dövrlər sosial-iqtisadi və tikinti-quruculuq işləri baxımından xeyli inkişaf etməsi, yeni iş yerlərinin açılması, insanların gün-güzəranının yaxşılaşdırılması da əsas amillərdəndir.

Bölgəyə səfəri çərçivəsində Şəkidə olarkən ölkə Prezidenti İlham Əliyev demişdir: “Şəkidə çox böyük quruculuq işləri aparılır. Şəhər gözəlləşir, öz tarixi simasını saxlamaqla müasirləşir, abadlaşır, yeni məktəblər tikilir, mədəniyyət ocaqları, küçələr abadlaşır. Yəni Şəki belə yaxşı inkişaf edir. Mən buna çox sevinirəm. Amma istəyirəm ki, bu inkişaf daha da sürətlə getsin və insanları narahat edən bütün məsələlər öz həllini tapsın".

TÜRKSOY-un baş katibi Düsen Kaseinov bildirib ki, türk dünyasının UNESCO-su hesab edilən qurum 20 ildən artıqdır türk xalqları arasında dostluq və qardaşlıq əlaqələrini möhkəmləndirmək, ortaq türk mədəniyyətini gələcək nəsillərə çatdırmaq və dünyaya tanıtmaq üçün səmərəli iş aparır. Vurğulanıb ki, TÜRKSOY-un ən uğurlu təşəbbüslərindən biri

2012-ci ildən həyata keçirilən “Türk dünyasının mədəniyyət paytaxtı” layihəsidir.

Şəki Xan sarayı Azərbaycan xalqının tarixindən soraq verən möhtəşəm bir abidədir. İllər, onilliklər, yüzilliklər keçir, amma tarixin bu parlaq nişanəsinə maraq azalmır. Səbəb isə budur ki, Xan sarayı bənzərsiz memarlıq nümunəsi olmaqla yanaşı, həm də xalq sənətini nümayiş etdirən əbədi bir sərgidir. Burada otaqdan- otağa keçdikcə tavanda, divarlarda əks olunmuş mənzərələr insanı valeh edir.

Min cür çiçək təsviri, naxışlar, rəsmlər, bəzəklər, ov və döyüş səhnələri sanki dil açıb nağıl danışır. Əslində isə bunlar nağıl deyil, həqiqətdir. Xalqımızın mədəniyyətindən və mənəviyyatından, zövq və istedadından, təfəkküründən və təxəyyülündən söhbət açan bir həqiqət...

Elə buna görə də Xan sarayı həmişə qonaqlı-qaralı olur.

2006-cı il aprel ayının 13-də Prezident İlham Əliyevin Şəkiyə səfəri zamanı uzun illər ərzində əsaslı təmir edilməyən və yararsız vəziyyətə düşmüş "Şəki Xanlarının evi” nin təmir edilməsi barədə dövlət başçısının tapşırığına əsasən XVIII əsrə aid bu tikili yenidən qurulmuşdur.



Dövlət başçısı binanın, Heydər Əliyev və M.F.Axundzadə prospektlərinin bərpadan əvvəlki və sonrakı görüntülərini əks etdirən stendlərə baxdı.

Bina ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, "Şəki Xanlarının evi" nin bərpası işlərinə 2012-ci ilin noyabrında başlanılmışdır. Altı otaqdan, dörd dəhlizdən və iki eyvandan ibarət bina çiy kərpicdən tikilmiş, pəncərələri şəbəkə üsulu ilə düzəldilmişdir. Ərazisi 700 kvadratmetr olan binanın yenidən qurulması Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında aparılmışdır. Otaqlardan biri xüsusi rəsmlərlə bəzədilib və qonaq otağı kimi nəzərdə tutulmuşdur.

Diqqətə çatdırıldı ki, XVIII əsrə aid tarixi abidə olan "Şəki Xanlarının evi" ilk dəfədir təmir edilir. Bərpa işləri həyata keçirilərkən binanın tarixi görkəmi saxlanılmışdır. İkimərtəbəli binanın əsas otağında milli ornamentlərə uyğun olaraq Azərbaycan tarixini əks etdirən şəkillər və tarixən bu ərazilərdə yaşayan xalqların nümayəndələrinin portretləri əks olunmuşdur. Mədəniyyət və Turizm Nazirliyinin əmrinə əsasən “Şəki Xanlarının evi” abidə-muzey kimi fəaliyyət göstərəcəkdir. Sonra abidənin hər bir otağı öz təyinatına uyğun olaraq eksponatlarla təmin ediləcəkdir. Ümumilikdə, Şəkidə 84 dünya və yerli əhəmiyyətli memarlıq abidəsi vardır. "Şəki Xanlarının evi" isə Yuxarı Baş Dövlət Tarix-Memarlıq Qoruğunun tərkibində fəaliyyət göstərir. Həmin qoruqda "Şəki Xanlarının evi" ilə yanaşı, qeydiyyatdan keçən 25 abidə vardır.

Şəki Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olub, bu gün də həmin ənənəni qoruyub saxlayır. Burada Şərq memarlıq sənətinin incisi sayılan Xan sarayı, möhtəşəm Aşağı Karvansaray və Yuxarı Karvansaray binaları, Kiş kəndindəki

qədim alban məbədi və digər tarixi abidələr bərpa edilərək qorunub saxlanılır.



Şəkiyə gələn turistlərin ziyarətgahına çevrilmiş həmin abidələr görənləri heyran edir. Şəki həmçinin qədim sənətkarlıq mərkəzidir. Xalq sənətkarlığının bütün növləri burada yüksək səviyyədə inkişaf etdirilmişdir. Nəsildən-nəsilə keçən sənətkarlıq nümunələri turistlərin böyük marağına səbəb olur, onlar tərəfindən bu əl işləri həvəslə alınır.



# Ədəbiyyat

## Kitab


### 1958

**1.Şəki xanlığının tarixindən** /A.Q. Dadaşov, A. Sübhanverdi xanov; red. F. Babayev; Azərb. SSR EA, Tarix İn-tu.-Bakı: Azərb. SSR EA, 1958.-67, [7] s.

### 1970

**2.Şəki abidələri** /Ş. Fətullayev; red. M. Nəcəfov.-Bakı: Gənclik, 1970 [18] s. fotoşək.

**3.Şəki şirniyyatı** /Ə.İ. Əhmədov; red. R. Səfərov.-Bakı: Azərnəşr, 1970.-44, [4] s.: şək.

### 1982

**4.Şəki**: tarixi oçerk /M.Ə. İsmayılov; elmi red. S. Əliyarov.-Bakı: Azərnəşr, 1982.-150, [2] s.

### 1987

**5.Şəki sənətkarlar diyarıdır** /A.N. Mustafayev; red. H.A. Quliyev, Q. A. Quliyev.- Bakı: Elm, 1987.-104 s.

### 1989

**6.Azərbaycan SSR Şəki-Zaqatala zonasının toponimiyası** / E. Nuriyev; red. B.Ə.Budaqov. Azərb. SSR EA Coğrafiya İn-tu.-Bakı: Elm, 1989.-107 s.

### 1992

**7.Saa quzu kəsərəm** /Red. M. Əmirova; Toplayanı, işləyəni və tərtib edəni. H. Əbdülhəlimov.-Bakı: İşıq, 1992.- 192 s.

**1993**

**8.Şəki xanlığının müxtəsər tarixi:** [Şəki xanları və onların nəsilləri] /K.A. Fateh, H.S. Əbdülhəmid.-Bakı: Azərbaycan Ensiklopediyası, 1993.-32 s.

**1994**

**9.Şəki lətifələri** /Toplayan, işləyəni və tərtib edəni. H. Əbdülhəlimov; Red. S.Əzizova.- Bakı: Azərnəşr, 1994.-136 s.

**1997**

**10.Şəki xanlığı** /Mahmud İsmayıl, Maya Bağırova; Elmi red.: Fuad Əliyev; Red.: Sədaqət Cabbarova.-Bakı: Azərnəşr, 1997.-76 s.

**2000**

**11.Azərbaycan folkloru antologiyası** /tərt. ed. H. Əbdülhəlimov, R. Qafarlı, O. Əliyev, V. Aslan; red. H. İsmayılov, F. Çələbi; AzEA, Nizami ad. Ədəbiyyat İn-tu; Folklor Elmi-Mədəni Mərkəzi Şəki folkloru 4-cü kitab 1-ci cild.- Bakı: Səda, 2000.- 498 s.:

**2001**

**12.Şəki dövlətçiliyimizin qalasıdır** /Zəka Qafqazlı; Red: Baxış Ələsgərov; Naşir: Telman Vəlixanlı.- Bakı: Mütərcim, 2001.-200 s.

**2002**

**13. Azərbaycan folkloru antologiyası** /toplayanı, tərt. ed., söyləyicilər, toplayıcılar, qaynaqlar haqqında məlum atın, qeyd və şərhlərin müəl. H. Əbdülhəlimov; ön sözün müəl. F. Çələbi; red. Y. Qarayev; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu, Folklor Elmi-Mədəni Mərkəzi Bakı: Nurlan, 2002.-496 s.

**14.Şəki: Alim və ziyalılar** /Tərt.: Ə. Məmmədov, F. Xalıqov; Red. heyəti: B. Vahabzadə, M. İsmayılov, Y. Qarayev və b.- Bakı: Bakı Universiteti, 2002.- 582 səh.: şəkilli.

**2003**

**15. Azərbaycan Respublikasının regional coğrafi problem ləri. Şəki-Zaqatala iqtisadi rayonu** /AMEA, akad. H. Ə. Əliyev ad. Coğrafiya İn-tu, Şəki Regional Elmi Mərkəzi; baş red. B.Ə. Budaqov; məsul red. R.M. Məmmədov, N. H. Əyyubov .- Bakı: Nafta-Press, 2003.-190 s.

**16. Lütvəli kişidən folklor nümunələri:** Şəki folkloru / Toplayanı: L.Vahabov; Tərt. və elmi red.: R.Qafarlı; Red.: T.Tofiq qızı .-Bakı: Təhsil, 2003.-160 səh.: ill.

**17. Şəki Azərbaycanın Xalq Cümhuriyyətinin fəaliyyəti illərində:** 1918-1920-ci illər /S. Əfənduyev; Red.: Mürsəl Cavad.- Bakı: 2003.-32 s.

**2005**

**18. Azərbaycan folkloru antologiyası** /AMEA, Folklor İn-tu; tərt. ed. İ. Abbaslı, O. Əliyev, M. Abdullayeva; elmi red. H. İsmayılov; nəşrinə məsul Ə. Ələkbərli.-Bakı: Səda, 2005. XIII Cild Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən, folkloru.

**19.Şəki regional elmi mərkəzi 30 ildə** / Baş red. Z. Əlizadə; Red. Ü. Hüseynova; AMEA Şəki Regional Elmi Mərkəzi.- Bakı: İsmayıl, 2005.-180 s.: fotoşək.

**20. Şəkinin tarixi qaynaqlarda** / Ə.Tahirzadə; Naşir: N.İbrahimov; AMEA, Şəki Regional Elm Mərkəzi.- Bakı: Master, 2005.-256s.: şəkilli.

**2007**

**21.Şəki:** Alim və ziyalılar / tərt. ed. və ön söz. Ə. Məmmədov, F. Xalıqov; red. B.Vahabzadə [və b.] II Hissə.- Bakı: Elm, 2007.- 428 s.

**2008**

**22.Gözoo yiyərəm mən:** əsrin gözəli : əsrin qarısı /A. Şəkili Ağaəli. (Mustafayev) .-Şəki: 2008. 133, [2] s.

**23.Şəki ipəyi uzaq karvan yollarında** /Z.Əlizadə, N.İbrahimov; [elmi red. M. Qasımlı; dil red. Ə. Tahirzadə; rəssamlar. A. Yusifoğlu, T. Həmidli]; Azərb. Milli EA, Şəki Regional Mərkəzi.- Bakı: Nafta - Press, 2008. -252 s.

## 2009

**24.Azərbaycan folkloru antologiyası** /AMEA, Filklor İn-tu; toplayanı, tərt. ed., söyləyənlər, toplayıcılar, qaynaqlar haq-da məlumatın, qeyd və şərhlərin müəl. H. Əbdülhə limov; red. H. İsmayılov; ön söz müəl. F. Çələbi; nəşrə məs. Ə. Ələkbərli.- Bakı: Nurlan.-2009.-530, [2] s.: 21 sm. XVIII Kitab III Cild Şəki folkloru.

**25. Şərqin qapısında möcüzələr** / E. İbrahimov; naşir. M. Quliyev və b.; red. A. Rəşidova; dizayner. F. Məmmədova; foto. A. Rəşidova, E. İbrahimov, M. Abbasov.-Bakı: Letterpress Nəşriyyat Evi, 2009.-59, [1] s.

**26. Şəkidə məhəllə adları soylar və ləqəblər** / Z. Mabudoğlu, U.Bəşirqızı, K.Adışirinov; elmi red. M. Qasımlı, Ə. Tahirzadə; AMEA Şəki Regional Elmi Mərkəzi.-Bakı: Nafta-Press, 2009.-603, [1] s.

## 2011

**27.Azərbaycan milli mətbəxinin əziz və ləziz Şəki xörəkləri**: milli ədəbiyyatla milli mətbəxin qovuşması /C. Xəlifəzadə; məsləhətçi F. Qoca; red. N. Tapdıqoğlu; fotoqraflar R. Sadıqov, S. Qasımzadə.- Bakı: "Zərdabi LTD" MMC, 2011. 151, [1] s., [8] v.

**28.Babaların hikmət xəzinəsi:** [milli azlıqların folkloru: Şəki-Balakən bölgəsi] /Ə.A. Süleymanov; red. M. Qasımlı, Z. Əlizadə; AMEA, Şəki Regional Elmi Mərkəzi .- Bakı: Apostroff, 2011. -254, [2] s.

## 2014

**29.**"**Azərbaycan milli mətbəxi"**: bayatılarda / A. Əmbala; ön söz T. Əmiraslanov.-Bakı: Nurlar NPM.- 2014.-31, [1] s.

**30.Qədim oğuz yurdu** - Baş Layısqı: ensiklopedik toplu /ideya müəl. A. Yusifli ; tərt. ed. və ön söz. müəl. A. Rüstəmli; elmi red. İ. Əlibala qızı; [toplayıcılar M. Yusifli, A. Hüseynli, M. Əhmədli, V. Osmanlı].-Bakı: Ozan, 2014.-527, [1] s., [16] v. rəngli fotoşək.: portr., cədv.

**31.Şəki folklor örnəkləri** /AMEA, Folklor İn-tu; lay. rəhbəri M. Kazımoğlu (İmanov) topl., tərt. ed. L. Vaqifqızı (Süleymanova); elmi red. Ə. Əsgər.-Bakı: Elm və təhsil, 2014.-407 s.

## 2016

**32.Azərbaycan folklorunda tolerantlıq və multikultura lizm**: Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəkləri əsasında: [monoqrafiya] / M. Yaqubqızı; elmi red. M. B. Əsgərov; [ön söz M. B. Əsgərov, M. Ə. Mahmudov] ; AMEA, Folklor İn-tu.-Bakı: Elm və təhsil, 2016.-181, [2] s., [1] qat.v. xəritə: fotoşək., portr.

**33. Şəkinin musiqi folkloru**: dərs vəsaiti /S. Təhmirazqızı; red. R. Zöhrabov.-Bakı: Nərgiz, 2016.-143, [1] s.

# Məqalələr

## 2009

**34.Dağlar qoynunda Şəki** / T.Nəzərli // Azərbaycan.-2009.- 17 iyun .- S. 5.

**35.Azərbaycan folkloru Antologiyası seriyasından**: "Şəki folkloru Antologiyası" və "Zəngəzur Folkloru Antologiyası" işıq üzü görüb /Zümrüd //Səs .-2009.-23 dekabr.-S. 12.

## 2010

**36."Şəki-Azərbaycanın sənətkarlıq paytaxtı-2010" ilinin təntənəli açılışı olmuşdur** // Xalq qəzeti.-2010.- 6 aprel.- S. 4.

**37."Xalq Yaradıcılığı Paytaxtları"** - Gəncə, Şəki və Qazax /Təranə //Kaspi.- 2010.- 4 fevral.- S. 15.

**38.Şəki festival şəhərinə çevrilib** /Nüşabə //Palitra.- 2010.- 2 iyul. - S. 15

**39.Şəki samovarının 3700 yaşı var** // Mədəniyyət.-2010.- 22 oktyabr.- S. 8.

**40.Şəki şəhəri "Azərbaycanın Sənətkarlıq Paytaxtı"dır:** "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramına əsasən tədbirlər keçirilir / Zümrüd.// Səs.-2010.- 28 sentyabr. S. 12.

**41.Şəki turizm mərkəzinə çevrilir** /Mehparə // Mədəniy yət.- 2010.- 9 iyul. - S. 8.

**42.Şəki Xan Sarayı-Qala divarları arasındakı cənnət** //Azadlıq.-2010.- 12 noyabr.- S. 13.

**43.Sənətkarlıq paytaxtı Şəki** /T.Nəzərli //Azərbaycan.- 2010.- 18 aprel.- S. 5.

## 2011

**44.Azərbaycan milli mətbəxinin əziz və ləziz Şəki xörəkləri** /T.Əliyev //Xalq qəzeti.-2011.- 17 iyul.- S. 6.

**45.Şəki Dram Teatrı səfərə çıxır.** //Ayna.-2011.-12 mart.- S.20.

**46.Şəki şəhəri YUNESKO-nun qeyri-maddi irs siyahısına salına bilər**: Mədəniyyət və Turizm naziri belə təklif edir // Üç nöqtə.-2011.- 8 fevral.- S. 13.
**47.Şəki:** karvansaraylar şəhəri: Region [Mətn] / M.Əhmədoğlu // Ədalət.-2011.- 10 mart.- S. 7.
**48.Şəki-açıq səmada muzey şəhər** /Y.Mahmudov // 525-ci qəzet.-2011.-17 sentyabr.-S. 14-15.

## 2012

**49.Dörd əsrin sənət yaddaşı:** Şəki Xan Sarayı- 250 // Mədəniyyət.-2012.- 4 iyul.- S. 16.
**50.“GƏLƏRSƏN-GÖRƏRSƏN" qalası: Şəki tarixindən qeydlər** / T.Babayev // Xalq qəzeti.-2012.- 4 noyabr.- S. 7.
**51.Şəki Dram Teatrı Konyada beynəlxalq festivalda** / S.Babayeva // Mədəniyyət.-2012.- 18 aprel.- S. 5.
**52.Şəki Xan Sarayı "Dünya irsi" siyahısında** / Nigar // Həftə içi.-2012.-3 iyul .- S. 8.
**53.Şəki Xan Sarayı** /Mehparə //Mədəniyyət.-2012.- 15 fevral.- S. 12.

## 2013

**54.Şəki - bir memarlıq abidəsidir** /İ.Rövşən // Mədəni həyat.-2013.- № 9.- S. 50-53.
**55.Şəki Xan sarayı - əsrlərin şahidi** //Azərbaycan.-2013.- 14 avqust.- S. 8.
**56.Şəki özünün ən gözəl dövrlərindən birini yaşayır** //Zaman.-2013.- 24 oktyabr.- S. 3.
**57.Şəki-Azərbaycanın qədim mədəniyyət mərkəzi** /T.Əliyev//Xalq qəzeti.-2013.- 3 noyabr.- S. 7
**58.«Şəki Xanlarının evi» ilə tanışlıq** //AZƏRTAC. //Azərbaycan-2013.- 16 avqust.- S. 5.
**59.Şəki... Şəkililər...** /Q. Məhərrəmli //Olaylar.-2013.- 25 oktyabr.- S.10.
**60.Şəki keçmiş şöhrətinə necə qovuşur?** /Ə.Mədətoğlu //Ədalət.-2013 .- 2 mart.- S.4.

**61.Yeni Şəkinin içindəki Köhnə Şəki** /G. Manaflı //Yeni Müsavat.-2013.- 30 avqust.- S. 15.

**2014**

**62.“Kəlağayım-əlvan örpəyim...” sərgisi** //Azərbaycan.- 2014.- 19 dekabr.- S.6.

**63.Azərbaycan kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib** / Ə.Əliyev //Azərbaycan.- 2014.- 27 noyabr.- S.3.

**64.Azərbaycan Kəlağayısı UNESCO-nun Qeyri-Maddi Mədəni İrs siyahısında** //525-ci qəzet, Palitra .-2014 .- 27 noyabr .- S.7, 16.

**65.Bu, xalq sənəti irsimizin tanıdılması deməkdir** / L.Azəri // Mədəniyyət, 2014.-28 noyabr.-S. 1.

**66.Bolqarıstanda Azərbaycan kəlağayı sənətinin təqdimatı** //Mədəniyyət .- 2014 .- 5 dekabr .- S. 16.

**67.Mədəni irsimizin növbəti təntənəsi: Azərbaycan kəlağayı sənəti UNESCO-nun siyahısına daxil edildi** //Mədəniyyət.- 2014.- 28 noyabr .- S. 3.

**68.Şəki turistlər üçün hər cəhətdən cəlbedici bölgədir** /T. Nəzərli //Azərbaycan.- 2014.-1 iyun.-S.10

**2015**

**69.Azərbaycan kəlağayı sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edildiyini təsdiqləyən sənəd Mehriban Əliyevaya təqdim olunub** //Azərbaycan xalçaları.-2015.- № 15.- S.16-17.

**70.Azərbaycan qadınlarının gözəllik simvolu - kəlağayı...** /İ.Sarıyeva // Bakı xəbər.-2015.- 28 aprel.- S. 15.

**71.Kəlağayı** / R.İbrahimova // Azərbaycan xalçaları .- 2015 .- № 15.- S.124-135.

**72.Kəlağayılar: Azərbaycan xalqının mədəni tarixini yaşadan sənətkarlıq nümunələrindən biri kimi UNESCO-**

**nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib** / M.Nərimanoğu //Azərbaycan.-2015.- 2 fevral.- S.7.
**73.Kəlağayısı gülgəz, libası əlvan" Xalça Muzeyində sərgi** /S.Fərəcov //Mədəniyyət, Azərbaycan .-2015.- 25 noyabr.- S. 9,11.
**74.Xalça Muzeyində kəlağayı ilə bağlı sərgi** / S.Abdullayeva // 525-ci qəzet.-2015.- 26 noyabr.- S. 7.
**75.Nənələrimizin yadigarı: Çiçək haşiyəli, buta yelənli kəlağayı** /F.Sadıqlı //Azərbaycan.-2015.- 8 mart.- S.3.
**76.Şəki "Türk dünyasının mədəniyyət paytaxtı" adına layiqdir** // Mədəniyyət.-2015.- 23 dekabr.- S. 10.
**77.Şəki "Türk dünyasının mədəniyyət paytaxtı" missiyasına layiqincə ev sahibliyi edəcək"** [Düsen Kaseinov: "Ümid edirəm ki, Rusiya regionlarında yaşayan türksoylu xalqlarla əməkdaşlıq kəsilməyəcək"] /D.Kaseinov; Müsahibəni apardı: M.Sultanova //Mədəniyyət.-2015.- 4 dekabr.- S. 6.
**78.**"**Şəki folklor örnəkləri"nin 2-cildi çap olunub** / S. Soltanlı // Mədəniyyət.-2015.- 7 oktyabr.- S. 15.
**79.Şəki gələn il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunub** / S.Abdullayeva // 525-ci qəzet.-2015.- 28 noyabr.- S. 17.
**80.Şəki mədəniyyəti Bolqarıstanda təqdim edilib** / S. Abdullayeva // 525-ci qəzet.- 2015.- 19 sentyabr.- S.17.
**81.Sirli –sehirli dünyamız:** [Azərbaycan kəlağayısı haqqında bir necə söz] /T.Bayramov // Xalq qazeti, 2015.-11 yanvar.-S.7.

## 2016

**82.Azərbaycan Kəlağayısı UNESCO-nun Qeyri-Maddi Mədəni İrs siyahısında** //525-ci qəzet, Palitra, 16.
**83.Azərbaycan kəlağayısının Parisdə butiki təşkil edilib** // Azərbaycan, 525-ci qəzet .-2016.- 8 mart.- S. 7, 11.
**84.Dostluq və qardaşlığın təntənəsi** / Əli Səlimov //Azərbaycan.- 2016.- 1 may.- S. 1-7.

**85.Ənənəvi baş örpəyi-kəlağayı** / D.Tağıyev // Kaspi, 2016.- 13 dekabr.- S.10.

**86.Hər addımda tarix çağıran şəhər** / F. Hüseynov// Mədəniyyət.-2016.-- 29 yanvar.-S.23.

**87.XX əsr Şəki ədəbi-mədəni mühiti və onun tədqiqi** / M. Səlim // Ədəbiyyat qəzeti.- 2016.- 13 fevral.- S.9.

**88.Qədim Şəki**: /F. Qoca // Ədəbiyyat qəzeti.- 2016.- 24 sentyabr.- S.2-3.

**89.Qədimliyin və müasirliyin harmoniyas - Şəki fenomeni** / M.Əhmədzadə // Ədalət.-2016.- 23 noyabr.- S.3.

**90."Mədəniyyət paytaxtı" ilinin tədbirlər planı müzakirə olunub:** [Şəki 2016 - Türk dünyasının mədəniyyət paytaxtı] //Mədəniyyət.-2016.- 17 fevral.- S. 3.

**91.Mədəniyyət və turizm naziri TÜRKSOY-un baş katibi ilə görüşüb** //Mədəniyyət.-2016.- 16 sentyabr.- S.5.

**92.Özbəkistanda Azərbaycan kəlağayılarının təqdimatı keçirilib** / Tural //Palitra.- 2016.- 3 iyun .- S.13.

**93.Özbəkistanda Azərbaycan kəlağayılarının təqdimatı keçirilib** /Q.Kəngərli //Mədəniyyət, Azərbaycan, 525-ci qəzet.- 2016.- 3, 4 iyun .- S.7, 8, 13

**94.Özbəkistandakı "Atlas festivalı"nda Azərbaycan kəlağayıları nümayiş etdirilib** //Mədəniyyət.-2016.- 16 sentyabr. - S. 13.

**95.Şəki "Türk dünyasının mədəniyyət paytaxtı-2016" ilin təntənəli açılışı olub** / Z. Bayramova // Səs.-2016.-30 aprel.- S.13.

**96.Şəki festivalında Azərbaycanın zəngin mətbəxi dünyaya tanıdılıb** / Nigar // Palitra .-2016.- 22 iyul.- S.15.

**97.Şəki ilə bağlı yeni kitabların təqdimatı olub** / Fuad // Palitra.-2016.- 1 iyul.- S.13.

**98.Şəki Türk dünyasının mədəniyyət paytaxtı kimi** [Bununla bağlı keçiriləcək tədbirlər planı müzakirə olunub] //525-ci qəzet.-2016.- 17 fevral.- S. 4.

**99.Şəkidə TÜRKSOY Daimi Şurasının toplantısı keçiriləcək** ["Şəki - Türk dünyasının mədəniyyət paytaxtı 2016" ilinə yekun vurulur] // Mədəniyyət.-2016.-30 noyabr.-S.2.

**100."Türk dünyasının mədəniyyət paytaxtı –Şəki-2016" ilin açılış mərasimi dostluq və qardaşlığın təntənəsinə çevrildi.** /Azərtac // Respublika.-2016.-29 aprel.-S.8.

**101.Türk dünyasının mədəniyyət paytaxtı-Şəki** /F.Hüseynov //Gündəm.-2016.-29 aprel.- S. 2.

**102.UNESCO-da Azərbaycan kəlağayısının təqdimatı** /Ş.Ağalarova //Mədəniyyət, Azərbaycan .-2016.- 10-11 mart.-S. 8, 12.

## Dissertasiya

### 2000

**103.Azərbaycanlıların ailə məişətində etnik ənənələr**: (XIX əsr və XX əsrin əvvəllərində Şəki-Zaqatala bölgəsinin materialları əsasında): tarix e. n. a. dər. a.üçün təq. ed. dis.: /M.T. Paşayeva; AMEA, Arxeologiya və Etnoqrafiya İn-tu.-Bakı: 2000.-150 s.

### 2002

**104.Azərbaycan folklorunun regional xüsusiyyətləri:** (Şəki-Zaqatala folklor nümunələri əsasında): filol. e. n. a. dər. al. üçün təq. ed. dis.: 10.01.09 /M. Abdullayeva; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu. Bakı: 2002.-158 s.

## Rus dili

**2010**

**105.История Шекинских ханов** [Текст] /А. Л. Эфенди; отв. за выпуск. В. Бахманлы; ред. А. Асадзаде; худож. ред. К. Лидия; дизайн. Н. Махмудов; М-во Культуры и Туризма Азерб. Респ., Нац. Библиотека Азерб. им. М. Ф. Ахундова Баку: Хатун Плюс, 2010.- [34] с.: генеологичес кая схема, 20 см

## İnternet resursları:

www.azertag.com
www.anl.az
www.clb.az
www . mətbuat.az
www. medya.az
www. sia.az

# Şəki Türk dünyasının mədəniyyət paytaxtı

(tövsiyə biblioqrafiyası)

**Komputer yığımı**
**və dizayn:** ***Tünzalə Əzizova***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F. Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 21
Çapa imzalanmışdır: 21.12.2016
Tirajı:100
Pulsuz.